# Zəfərlərlə başlanan il yeni uğurlarla başa çatır



*Bizim qonşularla münasibətlərimiz daha da güclənib. Biz səmərəli əməkdaşlıq mühiti yarada bilmişik, qonşularımızla qarşılıqlı hörmətə əsaslanan bir əməkdaşlıq növü qurmuşuq. Biz nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və sərmayə sahələrində körpülər qurmağa nail ola bilmişik. Təbii ki, bu, bizim ənənəvi əməkdaşlığımızın sayəsində mümkün olub.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bu yazını yola saldığımız ildəki diplomatik uğurlar, xarici siyasətimizi ənənəvi sülhpərvərlik və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə sədaqətlə davam etdirməyimiz barədə qələmə almaq istəyirdik. Ancaq ilin ilk ayında şahidi olduğumuz faktlar sübut etdi ki, Prezident İlham Əliyevin 44 günlük müharibədən sonra atdığı bütün addımlar məhz xarici siyasətdəki mövqelərimizin daha da möhkəmləndirilməsinə xidmət edib.***

Bu arqumentimizi faktlarla əsaslandıraq. Azərbaycan dövləti 2021-ci il yanvarın 1-də işğaldan azad olunan ərazilərdə radio-televiziya yayımına başladı. Bu isə dünyaya “eşit və gör, biz hərb istəmirik, ancaq hərbə hazırıq!” –mesajını məhz ermənilərin və onlara himayədarlıq edənlərin otuz il at oynatdığı ərazilərdən çatdırılması idi. Niyə məhz həmin ərazilərdən? Çünki işğalçını, terrorçunu dəstəkləyən bütün qüvvələrin qulağı məhz həmin ərazilərdə idi. Biz onlara deyəcəyimiz sözləri bilavasitə ilin ilk günündə tele-radio yayımları ilə çatdırdıq.

Yanvarın 3-də Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə səfərdə olan Rusiya Federasiyası hökumətinin sədr müavini Aleksey Overçuk ilə görüşdü. Bu görüşün əsas məqsədi 10 noyabr üçtərəfli Bəyanatının bütün müddəalarına əməl edilməsinə zəmin yaratmaqdan ibarət idi. Təbii ki, Azərbaycan rəhbərliyi hərdəmxəyal Ermənistan rəhbərliyinin həmin müddəalara nə zaman əməl edəcəyini gözləyə bilməzdi və ona görə də öz planlarının icrasını ardıcıllıq və prinsipiallıqla davam etdirirdi. Elə yanvarın 4-də “Qarabağ Dirçəliş Fondu”nun yaradılması da beynəlxalq aləmdəki bədxahlarımıza “Siz nə istəyirsiniz, necə istəyirsiniz, danışın, biz Qarabağ münaqişəsini həll etmişik!” – mesajının göndərilməsi idi.

Prezident İlham Əliyevin yanvarın 5-də imzaladığı sərəncamla 2021-ci il ölkəmizdə “Nizami Gəncəvi” ili elan olundu. Bu fakt təkcə ulu şairimizin anadan olmasının 880 illiyinin məhz bu il tamam olması ilə əsaslandırıla bilməzdi. Bu fakt həm də dövlət başçımızın təşəbbüsü ilə 2011-ci il dekabrın 23-də yaradılmış Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həm son 10 ildə, həm də 44 günlük müharibə zamanı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə, bizim haqq işimizi daim müdafiə etməsinə verilən ədalətli qiymətin göstəricisi idi. Xatırladaq ki, məhz İlham Əliyevin dəstəyi ilə fəaliyyətini davam etdirən bu mərkəz qeyri-hökumət təşkilatı olaraq ətrafında müxtəlif xarici ölkələrin keçmiş dövlət və hökumət başçıları və nüfuzlu beynəlxalq ekspertləri birləşdirir. Mərkəzin Avropa qitəsindən 25 ölkədən 53, Amerika qitəsindən 2 ölkədən 6, Asiya qitəsindən 12 ölkədən 15, Afrika qitəsindən 4 ölkədən 5, ümumilikdə isə 79 görkəmli üzvü var. Mərkəz 2013-cü ildən etibarən Bakı şəhərində keçirilən Qlobal Bakı Forumunun əsas təşkilatçısı kimi çıxış edir. Yəni bu qurum Azərbaycanın xarici siyasətinin dünyanın hər yerində təbliğini təmin edir.

Yanvarda şahidi olduğumuz əsas faktlardan biri də həmin ayın 11-də Moskvada Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün olması və 10 Noyabr 2020-ci tarixli bəyanatdan sonra daha bir mühüm sənədin imzalanması idi ki, son günlərin hadisələri həmin görüşün nə qədər əhəmiyyət kəsb etdiyini göstərir.

Yanvarın 14-də Prezident İlham Əliyev sonradan “Qarabağın hava qapısı”adlandırılan Füzuli Beynəlxalq Hava Limanının təməlini qoydu. Tikintisi cəmi səkkiz ayda başa çatdırılan bu mühüm strateji obyektin açılışında Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə nazirlər, deputatlar və tanınmış mütəxəssislərdən ibarət böyük bir nümayəndə heyətinin də iştirak etməsi Azərbaycan diplomatiyasının dünyadakı antitürk qüvvələrə verdiyi əhəmiyyətli cavab idi.

Ayın 21-də Xəzər dənizindəki “Dostluq” yatağı haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirildi. Ekspertlərin fikrincə, Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ən uğurlu göstəricilərindən olan həmin fakt təkcə Azərbaycan – Türkmənistan əməkdaşlığının genişləndirilməsinə xidmət etmədi, həm də türk dünyasının daha da qüdrətlənməsinə mühüm töhfə oldu.

Yeri gəlmişkən, Türk dünyasının müasir dövrdə əsas söz sahiblərindən biri olduğu yanvarın 30-da bir daha sübut edildi. Belə ki, həmin gün Ağdamda Türkiyə – Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başladı. Bu isə Ermənistandakı və bəzi Avropa ölkələrindəki qaragüruhçuların 44 günlük müharibədən sonra yaranmış yeni reallıqların kimlər tərəfindənsə tanınmayacağı barədə söylədiyi cəfəngiyyatların tamamilə əsassız olduğununun gstəricisi idi. Yəni həmin reallıqların tanınmasına dost və tərəfdaşımız olan Moskva ilə yanaşı, qardaş Ankaranın da nəzarət etməsi çox möhtəşəm perspektivdən xəbər verirdi.

Bax, belə, ilin ilk ayında şahidi olduğumuz faktların bəziləri haqqında qələmə aldığımız sətirlər bütövlükdə 2021-ci ilin siyasi-diplomatik göstəricilərinin miqyası barədə təsəvvür yaradır. Ona görə də bütün aylarda şahidi olduğumuz fakt və hadisələr barədə bu şəkildə – müfəssəl söz açmağa ehtiyac qalmır. Ancaq bəzi mühüm faktların daha bir neçəsini xatırlatmaq istəyirik.

Məsələn, mayın 12-13-də Şuşada keçirilmiş “Xarıbülbül” festivalının sırf mədəniyyət tədbiri kimi qəbul edilməsi tamamilə yanlış olardı. Çünki İlham Əliyev həmin təşəbbüslə çox böyük siyasi-diplomatik addım atmış və lazım olan, daha doğrusu, istədiyi nəticələrə nail olmuşdu. Yaxud, iyunun 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti İlham Əliyev arasında imzalanmış Şuşa Bəyannaməsi qətiyyən daxili siyasət məsələsi deyildi. Dövlət başçılarının bu jesti Qafqazda davam edəcək proseslərin müsbət məcraya yönələcəyindən xəbər verirdi.

Noyabr ayı bu baxımdan bir neçə cəhətdən diqqət çəkdi. Ayın 12-də TDƏŞ-in İstanbulda keçirilən VIII Zirvə Görüşü bizim üçün ikiqat səmərəli oldu. Əvvəla, ona görə ki, quruma Azərbaycanın sədrlik etdiyi dövrdə irəli sürülmüş Türk Dövlətləri Təşkilatı təşəbbüsü məhz VIII sammitdə reallaşdırıldı. İkinci məsələ isə Prezident İlham Əliyevin siyasi, diplomatik fəaliyyətinin yüksək qiymətləndirilməsi, ona Türk Dünyasının Ali mükafatının təqdim edilməsi oldu.

Dövlət başçımızın dekabrın 23-də reallaşdırdığı Brüssel səfəri də uzun müddət yaddaşlarda qalacaq. Çünki Prezident ilk dəfə Brüsseldə Zəngəzur dəhlizi ilə bağlı ölkəmizin konkret və açıq mövqeyini ortaya qoyaraq bildirdi ki, Zəngəzur və Laçın dəhlizinə eyni status verilməlidir. Ya hər ikisində gömrük və ya sərhəd yoxlaması olmadan keçid imkanı tanınmalı, ya da əgər Zəngəzur dəhlizinə bu yoxlamalar tətbiq ediləcəksə, o zaman eyni hüquqi prosedurlar Laçın dəhlizinə də tətbiq edilməlidir. Bunun nə demək olduğunu biz hamımız çox yaxşı başa düşürük. Ekspertlərin fikrincə, bu, Azərbaycanın 100 il əvvəl qoparılmış qərbi Zəngəzur torpaqlarına maneəsiz keçid əldə etməsi, ya da Laçın dəhlizindəki sərbəst buraxılış rejiminə son qoyulması üçün tarixi fürsətdir

Noyabrın 26-da Azərbaycan və Rusiya prezidentərinin və Ermənistan baş nazirinin Soçidə görüşərək növbəti bəyannamə imzalaması isə sərhədlərin delimitasiya və demarkasiyasının sürətləndirilməsinə təkan verəcək fakt kimi qiymətləndirildi.

Dövlət başçımızın builki səfərləri dekabrın 28-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirakı ilə davam etdirildi. Verilən məlumata görə görüşdə koronavirus pandemiyasına qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Bir sözlə, 2021-ci il təkcə işğaldan azad edilmiş ərazilərimizin bərpasının sürətləndirilməsi, yeni infrastruktur layihələrinin reallaşdırılması ilə deyil, həm də ordumuzun şanlı qələbəsinin, ölkəmizin haqq səsinin bütün dünyada eşidilməsi istiqamətində atılan siyasi-diplomatik addımlarla da yadda qaldı. İnanırıq ki, 2022-ci il ölkəmiz və xalqımız üçün daha böyük uğurlarla əlamətdar olacaq!

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***